# *Müəllim nə üçün müəllim ola bilmir?*

***Akif MƏMMƏDOV***
***pedaqoji elmlər namizədi,***
***“Ana sözü” jurnalının şöbə müdiri***

Son vaxtlar tez-tez eşidirik ki, müəllimlər tətil edir, “çömçətutan” idarələrin qabağında piketlər qururlar. Bütün tələblərin mahiyyətində isə bir məsələ durur: “Müəllimin yaşayış tərzi yaxşılaşdırılsın!”. Belə istək-tələblər bazarların od tutub-yandığı bir vaxtda müəllimin birtəhət yaşamasını, başqa sözlə, acından ölməməsini təmin etmək üçündür. Ancaq acından ölməyib birtəhər yaşamaq hələ MÜƏLLİM olmaq demək deyil. Zaman-zaman toplanaraq ağır yük kimi müəllimin mənəviyyatını əzən, şəxsiyyətini alçaldan, nüfuzunu öldürən o qədər amillər var ki. Bütün bunları aradan qaldırmaq üçün çox iş görmək lazım gələcək. Hələlik isə, əlbəttə, ilk növbədə yaşamaq lazımdır!

Ümumiyyətlə, nüfuzu sözlə, təbliğatla saxlamaq olmaz. Necə ki, nəhəng təbliğat maşını sosializmi ölümdən xilas edə bilmədi.

Dövlətin xalq maarifinə az qala ənənə şəklini alan və bu gün özünü daha qabarıq şəkildə biruzə verən laqeydliyi, qayğısızlığı məktəbin, o cümlədən müəllimin nüfuzunun aşağı düşməsinə köklü təsir göstərmişdir. Nazirliklər içərisində ən kasıbı Xalq Təhsili Nazirliyi, aşağı təşkilatlar içərisində isə ən kasıbı məktəblərdir. Niyə? Ona görə ki, dövlət bura vəsaiti cirə ilə ayırır. Beləliklə, məktəb maddi imkanın yoxluğu ucundan ona etibar edilən vəzifələrin öhdəsindən gələ bilmir və gözdən düşür. Ancaq hərbi təxsisatlara həmişə ətək-ətək pul xərclənmişdir.

YERİ GƏLMİŞKƏN. Siyasətçilər baş sındırırlar ki, nəcəb SSRİ deyilən “nəhəng”, “qüdrətli” bir dövlət çox qısa müddətdə yerlə yeksan oldu. Məncə, uzağa getmək lazım deyil. Səbəb elə burada – göz qabağındadır: bir dövlət ki, elm, təhsil, tərbiyə üstündə yox, hərbi güc, silah üstündə qurula, o, gec-tez ölümə

məhkumdur. Bilik xəzinəsi əldə etmək əvəzinə, “yüz fəsadü fitnə təhrikiylə min kişvər” fəth edənlərin aqibətini böyük Füzuli çox gözəl görürdü:

Göstərən saətdə dövrani – fələk bir inqilab,
Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.

Müəllim düz olmaq, halal zəhmətlə dolanmaq və bu kimi insani sifətlərə yiyələnmək barədə şagirdlərinə nəsihət verməyə borcludur. Cəmiyyətimizin iş tərzi isə tamamilə başqa şey deyir. Məktəbi qurtaran şagird elə mühitlə rastlaşır ki, burada əyrilik düzlüyü çox vaxt kəsir, haqqın nazilib üzülən vaxtları da olur, halal zəhmətlə dolanmaq mümkün deyil. Yaxşı yaşamaq, başqaları tərəfindən sayılmaq üçün hökmən var-dövlət sahibi olmaq lazımdır. Bu var-dövləti isə rüşvətlə də, oğurluqla da, lap millətin, xalqın qanını sormaqla da yığa bilərsən. Bu nədir? Görəsən, müəllim niyə şagirdi həyatın belə amansız qaydalarına hazırlamayıb? Cavab başqa cür düşünülmür: ya müəllimi həyatı bilmir, ya da sadəcə olaraq, onu aldadıb. Fərqi yoxdur, hər iki cavab şagirdi müəllimindən incik salır.

Çoxları deyirlər ki, müəllimlərin içərisində də bu adı nüfuzdan salan, özünün “şəxsi nümunəsi” ilə bütövlükdə peşəyə mənfi münasibət yaradanlar var. Tamamilə doğrudur və belələri hazırkı müəllim ordusunun ən azı doxsan faizini təşkil edirlər. Bu doxsan faizin beləcə - dırnağarası müəllim kimi formalaşmasının bir neçə səbəbi var:

*BİRİNCİSİ.* Bu müqəddəs hesab etdiyimiz sənətə çoxdandır haram əl uzatmışıq. Min cür əyri yollarla müəllimlərin sırasını təsadüfi adamlarla bərbad hala salmış, bununla da paklığa ləkə gətirmişik. Bir neçə fakt.

Başqaları bir yana, müəllim hazırlayan ali məktəblərdə qəbul vaxtı əsas meyarın bilik yox, pul olduğunun qarşısını ala bilmişikmi? Əksinə, bu işə bir qədər də rəvac vermişik. Bir vaxtlar V.İ.Lenin adına APİ camaat arasında “kəndçilər institutu” adlanırdı, oxuyanlarının çoxunun kasıb-kusub uşağı olmasına görə. İndi isə tələbələrin mütləq əksəriyyəti nisbətən imkanlı, vəzifəli adamların uşaqlarıdır (daha çox imkanlı və daha yüksək vəzifəlilərin övladları daha yuxarı məktəblərdə yerləşdirilirlər). Əvvəlki ayama da götürülüb. Bu fakt çox şey

deyirmi? Bəlkə, belə nəticə çıxaraq: daha kasıb uşağının biliyi zəifləyib, varlıların uşaqları isə oxumağa başlayıblar?..

Beləliklə, əyri yolla ali məktəbə daxil olan əyri yolla da təhsilini başa vurur və sonra da bu yolu davam etdirir. Bir qədər "zəmanə adamı" olanı isə sürünə-sürünə qazandığı diplomu özünə qalxan edir, pul kisəsini işə salır və təlim-tərbiyə ocaqlarından birinə müdir gedir. Pillə-pillə lap yuxarı yüksələnləri də olur. Ətrafına da özü kimi "fərasətli uşaqlar" yığır. Bu münvalla "təmizlənmə" prosesi həndəsi silsilə ilə davam edir.

*HAŞİYƏ.* Hərdən oturub fikirləşirəm ki, ali məktəbdə dərs deyənlər də müəllimlərdir. Bəs, görəsən, onlar niyə hökuməti tətillə qorxutmur, piketlər qurub tələblər qoymurlar? Axı maaşları da orta məktəb müəllimlərinin maaşından ciddi surətdə fərqlənmir!

Mətləbdən yayınmayaq. Son vaxtlar müəllimlər üçün təzə-təzə fəxri adlar icad ediblər: "metodist müəllim", "baş müəllim" və lap təzəsi "ilin ən yaxşı müəllimi". Zəmanəyə uyğun hərəkət etməyi öyrənmiş müəllimlər çox vaxt maya qoyub bu adlardan "qazanır", işə can yandıran, başını aşağı salıb işini görən əsl müəllimlər isə belə əməllərə yana-yana baxır qalırlar. Bəzən də çıxış yolunu şəraitə uyğunlaşmaqda, "hamı kimi işləmək"də görürlər.

İKİNCİSİ. Elələri də var ki, məktəbə ilk dəfə qədəm basanda biliyi də yüksək səviyyədə olur, işləmək həvəsi də. Ancaq ətraf mühit onu sıxmağa başlayır. Görür ki, cani-dildən işləməyə qiymət verilmir, orta və ali məktəb partası arxasında yüksək fikirdə olduğu müəllim bir elə də hörmət sahibi deyilmiş və ən pisi, lap dağı dağ üstə qoysa da, xeyri yoxdur, onun əməyini heç kəs qiymətləndirməyəcək. Beləliklə, "palaza bürün elnən sürün" prinsipini seçir. Bu yaxınlarda yolum Astara rayonunun orta məktəblərindən birinə düşmüşdü. İnstitutda savadı, çalışqanlığı, müəllim peşəsinə vurğunluğu ilə qibtə oyadan tələbə yoldaşımla burada təsadüfən rastlaşdım. Onun qiymətləndirdiyi yazılı imtahan materiallarına baxdım. "Normalar"ın bütün tələblərini pozaraq, işləri necə gəldi yoxlamış, səhvlərin çoxunu düzəltməmiş və təbii ki, qiymətləndirmədə də nəzərə almamışdı. Dərsində

oturmaq istədim. Astarada çörək tapılmamasından tutmuş sərhəd gömrükxanasındakı həddin aşan rüşvətxorluğa qədər hər şeyi bəhanə gətirdi. Sonra da "ərkyana" dedi: "Eh, nə qoyub, nə axtarırsan? Camaat əlini ağdan qaraya vurmadan qaz vurub qazan doldurur, mən də qəpik-quruşdan ötrü ömrümü çürüdüm? Kimdir belə şeyləri qiymətləndirən?". Və bu yerdə respublikamızda əsl müəllim adını qoruyan tək-tək adamların necə böyük fədakarlıq göstərməli olduqlarını bir daha hiss etdim. Bəli, həyat amansızdır. Onun zərbələrinə hər adam dözə bilmir!

Təbii ki, hamı yaxşı dolanmaq istəyir. Ancaq yaxşı dolanmağın müxtəlif yolları var: düzü də, əyrisi də. Müəllim düz yolla o vaxt yaxşı dolanar ki, maaşı, heç olmasa, orta səviyyədə onu təmin etsin. Möhtəkirliyin ayaq tutub yeridiyi, qiymətlərin kosmik sürətlə qalxdığı bir vaxtda bu, mümkündürmü? Bir aylıq zəhmət haqqına iki kiloqram yağ ala bilməyən müəllim nə etməlidir? Beləliklə, bütün canlılara xas olan həyat uğrunda mübarizə instinkti üstün gəlir: bəziləri alverə qurşanır, bəziləri özünə ikinci sənət öyrənib, onun-bunun qapısında "çastnı" iş görür və s.

Bakıda yaxından tanıdığım internat-məktəblərin birində (belələri o qədər çoxdur ki, ad çəkməyə dəyməz) pedaqoji kollektivin az qala yarısı müxtəlif növ alverlə məşğuldur. Son vaxtlar bu alverçi müəllimlər fəaliyyət dairələrini genişləndirərək tez-tez xaricdə də məktəblərini təmsil edirlər (yaşasın demokratiya!). Acınacaqlı cəhət ondadır ki, məktəb müdirlərinin yanında belələrinin hörməti daha çox olur. Səbəb, məncə, məlumdur. Beləliklə, müəllimin alverçiləşməsinə münbit şərait yaradılır və "öncüllər"ə baxıb nümunə götürənlər də "əlverişli məşğuliyyət"ə qurşanırlar.

Bəli, müəllimin müəllim ola bilməməsinin səbəblərini sadalamaqla qurtarmaz. Onlar illərlə əmələ gəlmiş, bu gün isə daha güclü şəkildə davam edir. Hamısının mahiyyətini isə belə ifadə etmək olar: sistemin, cəmiyyətin müəllimə ögey münasibəti onu bu gün xilasına çalışdığımız burulğana salmışdır.

...Ancaq müəllim də borclu qalmamışdır: hazırda cəmiyyətin kütləvi şəkildə

mənəvi şikəstliyə düçar olması, düzlük, doğruluq, təmizlik deyilən əxlaq normalarının, insani keyfiyyətlərin ayaq altına salınaraq tapdalanması və bunun əvəzində min dürlü əyri yollarla var-dövlət yığmaq azarının ən yüksək səviyyədə "qanuniləşməsi" məhz tərbiyənin və təhsilin bünövrəsi qoyulan məktəbin zəifliyindən, müəllim nüfuzunun aşağı düşməsindədir. Necə deyərlər, ətraf aləmin müəllimə, məktəbə endirdiyi zərbə bumeranq kimi qayıdıb onun özünə dəymişdir.

***"Təhsil" qəzeti, aprel, 1992 (II həftə)***